AMEA Gəncə Bölməsinin yaradılmasının 40 illiyi qarşısında

# Gəncənin elm məbədi

**Ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Fərman və Sərəncamlarına uyğun olaraq dövlət təşkilatlarında struktur dəyişiklikləri aparılır, yeni innovativ texnologiyalar əsasında böyük layihələr həyata keçirilir.Ölkə başçısı tərəfindən AMEA qarşısında da müvafiq tapşırıqlar qoyulmuşdur ki, bu məsələlər AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə həyata keçirilir. AMEA-nın Gəncə Bölməsində də Rəyasət Heyətinin qərar və sərəncamlarına uyğun olaraq tapşırılan işlər həyata keçirilir. Artıq 40 ilə yaxındır ki, bu elm ocağı fəaliyyət göstərməkdədir.**

Şərqin ən qədim elm və mədəniyyət mərkəzlərindən biri olan, neçə-neçə yüzilliklərin sərhədlərini aşıb bu günümüzə gələn doğma Azərbaycanımızın elm məbədləri ölkə Prezidenti cənab İlham Əliyevin əqli mülkiyyətə, elmə, təhsilə göstərdiyi diqqət və qayğının sayəsində gündən-günə inkişaf etməkdədir.

Uca Tanrı canı, qanı, bütün varlığı ilə Vətəninə bağlı olan, ona sevgi və sədaqətlə xidmət edən elm adamlarından xali etməyib Gəncəni. Şərqin tarixən milli mədəniyyət və elm mərkəzlərindən biri kimi şöhrət tapmış Gəncə şəhərinin elmi- ədəbi mühitinin kökləri çox qədimdir. Minilliklər boyu Gəncə elmi mühitində xalqımızın bir çox alimləri, mütəfəkkirləri, memarları öz yaratdıqları əsərləri ilə dünya elmində xüsusi yer tutmuş, xalqımıza şöhrət gətirmişlər.

Belə görkəmli şəxsiyyətlərin bir neçəsini xatırlatmaq yerinə düşər.

Gəncədə dövrünün görkəmli mütəfəkkiri, Bağdadın məşhur "Nizamiyyə" mədrəsəsində müəllimlik etmiş şair Əbu Həfs Ömər ibn Osman ibn Şüeyb Gənci (1085-1155), Xaqani və Fələki Şirvaninin ustadı Nizaməddin Əbul Üla Gəncəvi (1096-1159), Məhsəti Gəncəvi (1096-1160), Rəziyyə Gəncəvi (1136-1198), Siti Gəncəvi (1108-1184), Doxtəri-Xətibi Gəncə (1105-1192), Doxtəri Həkimi-Gav (1124-1187), Qivami Mütərrizi (1143-1190), Tacəddin Əhməd Gəncəvi (1054-1148), Əbubəkr Gəncəvi (1135-1200), məşhur həkim Şəmsəddin Təbib Gəncəvi (1090-1035), Gəncədəki "Dar əl-kütub" kitabxanasının rəhbəri Həddad ibn Asim ibn Bəkran Əbülfəzl Naxçıvani (1078-1145), hüquqşünas Əbülfəzl İsmayıl ibn Əli ibn İbrahim əl Gəncəvi (1105-1192), tarixçi-salnaməçilər Mxitar Qoş (1130-1213), Kirakos Gəncəli (1200-1271) və nəhayət, dünya mədəniyyəti xəzinəsinə özünün "Xəmsə"si kimi misilsiz incilər bəxş etmiş, hələ sağlığında ikən müasirləri tərəfindən "Şərq poeziyasının günəşi" adlandırılan, bütün dövrlərin dahi mütəfəkkiri olan Nizami Gəncəvi (1141-1209) və sonrakı dövrləri əhatə edən böyük şərqşünas alim, ərəb və fars dillərinin kamil bilicisi Mirzə Cəfər Topçubaşov (1784-1869), "Divani hikmət" ədəbi məclisinin yaradıcısı, Şərqlə Qərb ədəbi mühitləri arasında mənəvi körpü yaratmış Mirzə Şəfi Vazeh (1794-1852), son dərəcə qiymətli "Tarixi Gəncə" kitabının müəllifi Şeyx İbrahim Qüdsi (1816-1865) Gəncə elmi mühitinin yetirmələridirlər.

Gəncədəki çoxsaylı mədrəsələrin, görkəmli müəllimlərin və kitabxanaların mövcudluğu burada zəngin elmi mühit yaratmış və bir sıra görkəmli, elmin müxtəlif sahələrində çalışmış alimlərin, tanınmış mütəfəkkirlərin yetişməsinə və fəaliyyətinə səbəb olmuşdur.

Görkəmli akademiklər Əli Quliyev (1912-1989), Maqsud Əliyev (1924-2016), Mirəli Qaşqay (1907-1977), Qambay Əlizadə (1899-1990), Ələddin Quliyev (1927-1983), Tofiq Əliyev (1928-1993), Çingiz Cuvarlı (1913-2001), Musa Musayev (1921-2010), Zülfüqar Məmmədov (1903-1971), Cahangir Abdullayev (1901-1973), Validə Tutayuq (1914-1980), Siddiqə Məmmədova (1925-2017), Mehdi Əliyev (1907-1970), Həmid Araslı (1902-1983), Əməkdar elm xadimi, professor Xəlil Yusifli (1935), Məhəmməd Qaraqaşlı, İsaq Cəfərzadə (1895-1982)və bu gün də fəaliyyətlərini davam etdirən akademik Asəf Hacıyev (1951) daha neçə-neçə alim və ziyalıların vətənidir Gəncə.

Təməli Ulu Öndərimiz Heydər Əliyev tərəfindən 1981-ci ildə qoyulmuş Kirovabad Elm Mərkəzi illər keçdikcə elmin müxtəlif sahələri üzrə inkişaf edərək regionumuzun sosial-iqtisadi inkişafının elmi əsaslar üzərində inkişaf etməsində, qədim tarixi köklərin və milli-mənəvi dəyərlərin öyrənilməsi istiqamətində tədqiqatlar həyata keçirməkdədir.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan Elm Mərkəzi Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 dekabr 2012-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi kimi fəaliyyətini davam etdirir və onun tərkibində yeddi elmi tədqiqat institutu fəaliyyət göstərir.

Fəaliyyətə başladığı vaxtdan regionun sosial-iqtisadi inkişafı və milli-mənəvi dəyərlərinin tədqiqi üzrə iş planına uyğun olaraq Bölmənin əməkdaşları tərəfindən bir çox mühüm regional problemlərin həlli ilə bağlı mühüm elmi-tədqiqat işləri araşdırılmışdır.

Ölkənin dinamik inkişafı naminə qərb bölgəsində əlvan metallurgiya və yüngül sənaye ilə yanaşı, elektronika, maşınqayırma, avtomobil sənayesi kimi müasir istehsal sahələri inkişaf etdirildiyi üçün həyata keçirilən layihələr də əsasən bu sahələri əhatə edirdi.

Regionun əlverişli coğrafi mövqeyi və burada bir çox təbii sərvətlərin - dəmir filizi, alunit, mis, kobalt, əhəngdaşı, mərmər, gips, bentonit, seolit, sement xammalı, yeraltı termal sular, dünyada analoqu olmayan Naftalan neftinin elmi əsaslarla öyrənilməsi və istehsalata cəlb edilməsi ən vacib problemlərdən biri idi və istehsal sahələrinin yaradılması sözsüz ki, külli miqdarda müxtəlif tərkibli tullantıların yaradılmasına səbəb olur.

Alunitin kompleks emalı, metallurgiya sənayesindəki qazlardan kükürdün alınması, Gədəbəy mis və qızıl mədənlərinin tullatılarından mis sulfatın alınması, Daşkəsən mədənləri xammalının emalı zamanı yaranan tullantıların, Naftalan neftinin konsoregen maddələrdən təmizlənməsi Gəncə Bölməsinin əsas elmi istiqamətləri kimi müəyyənləşdirilmişdir.

Uzun illər ərzində Qərb bölgəsində metallurgiya sənayesinin müxtəlif sahələrinin fəaliyyəti nəticəsində böyük torpaq və su hövzələri tullantılar tərəfindən zəbt edilmiş, ekoloji problemlərin yaranmasına səbəb olmuşdur. Bütün bunların qarşısını almaq məqsədilə milyon tonlarla tullantılar pasportlaşdırılmış və onların təkrar emal texnologiyaları işlənib hazırlanmışdır.

Əldə olunan nəticələr əsasında Gəncə İstehsalat Birliyində Qərb bölgəsində toplanmış sənaye tullantıları əsasında yuyucu maddələrin istehsal texnologiyası yaradılmış və keçmiş İttifaqın müxtəlif respublikalarına ixrac edilmişdir.

Şəhərimizdə fəaliyyət göstərən Alüminium Oksidi Kombinatında qlinozyom istehsalı zamanı milyon tonlarla tullantılardan təkrar istifadə olunması məqsədilə onlardan silikat boyaların, gübrələrin, zəylərin, keramik materialların alınması texnologiyası işlənib hazırlanmış və Respublika Texniki Təchizat Komitəsi nəzdində boyaq emalı istehsal sahələri yaradılmışdır.



Ötən illər ərzində Mərkəzin elmi və ictimai fəaliyyəti daha da genişlənmiş, elmi-tədqiqatların istiqamətləri müxtəlif sahələri əhatə etmiş və təsadüfi deyildir ki, Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinin səyyar iclası 1995-ci ildə Gəncə şəhərində keçirilmiş və Qərb bölgəsində elmi tədqiqat işlərinin koordinasiya olunması, kadr hazırlığı, elm-təhsil-istehsalat problemlərinin həlli yolları müzakirə edilmiş və proqramlar hazırlanmışdır.

Aparılan elmi-tədqiqat işləri regionun sosial-iqtisadi və milli-mənəvi dəyərlərini əhatə etdiyini nəzərə alaraq 1995-ci ildə AMEA Rəyasət Heyəti Mərkəzin Regional Mərkəzə çevrilməsi haqqında qərar qəbul etmişdir.



Qərb bölgəsi görkəmli elm və mədəniyyət xadimləri, dahi mütəfəkkirləri milli-mənəvi dəyərləri ilə daim seçilmiş və bu səbəbdən İctimai elmlər bölməsi 1982-ci ildə fəaliyyətə başlamış, bölgənin qədim tarixinin, zəngin arxeoloji və etnoqrafik materiallarının, incəsənət və mədəniyyətinin tədqiqi istiqamətində araşdırmalar aparmış və maraqlı nəticələr əldə etmişlər.

Gəncə Bölməsində fəaliyyət göstərən institutlar respublikamızın və bir sıra xarici ölkələrin institutları ilə əməkdaşlıq müqavilələri imzalamış və birgə tədqiqatlar aparmışlar.

Bölmə əməkdaşları Ümumittifaq Elmi-Tədqiqat Olefinlər İnstitutu ilə birgə kompozision materiallar alınmasında geniş istifadə olunan Qərb regionunun sənaye tullantılarından doldurucular kimi istifadə olunmasını təklif etmişlər. Təklif olunan bəzi doldurucular yüksək keyfiyyətli kompozision materiallar əldə edilməsinə səbəb olmuş və yeni müxtəlif keyfiyyətli materialların istehsalı yaradılmışdır. Əldə olunan nəticələrə əsaslanaraq birgə fəaliyyətin yekunlarına aid beynəlxalq elmi konfranslar keçirilmişdir.

Gəncə Bölməsi Aşqarlar Kimyası, Kataliz və Qeyri-üzvi Kimya, Polimer Materialları, Geologiya və Geofizika, Mikrobiologiya institutları, Əlyazmalar İnstitutu və Dilçilik İnstitutu ilə elmi əlaqələri davam etdirilir, alimlərin aldığı elmi nəticələr müqayisə edilərək kitab və monoqrafiyalarda öz əksini tapır.

AMEA-nın Gəncə Bölməsinin elmi fəaliyyəti ölkəmizin hüdudlarından kənarda da yayılmaqdadır. Yarandığı ilk illərdən Gəncə Bölməsinin elmi tədqiqat işlərinin nəticələrinin istehsalata tətbiq edilməsi, müxtəlif nazirliklər arasında əlaqələrin yaranması ümumi işimizin inkişafına köməklik göstərir. Keçmiş SSRİ məkanının elmi institut və müəssisələri Gəncə Bölməsi ilə birgə elmi əməkdaşlıqlar həyata keçirmişlər ki, onların bəzilərini yada salaq.

Rusiya Elmlər Akademiyasının A.A.Baykov adına Metallurgiya Materialşünaslıq İnstitutu, keçmiş SSRİ İnşaat Materialları Nazirliyinin Elmi-Tədqiqat Sement İnstitutu, Gürcüstan Politexnik İnstitutunun "Silikatlı materiallar" kafedrası, Latviya Məişət Kimyası Kombinatı ilə uzun illər elmi əlaqələr yaratmış, birgə tədqiqatlar apararaq bəzi elmi nəticələr sənayedə tətbiq edilmişdir.

Gəncə Alüminium Oksidi Kombinatında istehsal olunan sulfat gübrəsinin yarımsənaye qurğusunda dənəvərləşdirilməsi texnologiyası Sankt-Peterburq Elmi-Tədqiqat Kimya Maşınqayırma İnstitutunda həyata keçirilmişdir.

Gəncə Bölməsi yerli xammallar və tullantılar əsasında Silikat kərpic istehsalı texnologiyasının Krasnadar alimləri ilə birgə həyata keçirmişlər.

Gəncə Bölməsi XXI əsrdə də dünyanın müxtəlif ölkələrinin elmi qurumları ilə beynəlxalq əlaqələrini inkişaf etdirir.

2013-cü ildə Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə Bölməsi və "Madrid Klubu"nun idarə heyəti tərəfindən xarici ölkə alimlərinin iştirakı ilə "Gəncə şəhərinin yaranma tarixi" adlı konfrans keçirilmişdir.

Amerika Birləşmiş Ştatlarının Smitson İnstitutunun Milli Təbiət Tarixi Muzeyinin və Yaponiyanın Asaka Universitetinin arxeoloqları ilə birgə Gəncənin tarixi abidələrinin və ikimərtəbəli yeraltı yollarının araşdırılması istiqamətində aparılan müştərək tədqiqat işləri uğurlu nəticələr əldə etməyə imkan vermişdir.

Gəncə Bölməsi Beynəlxalq Nəzəri və Tətbiqi Elmlər Akademiyasının elmi təşkilat komitəsində təmsilçilik hüququ əldə etmiş, 2014-cü il üçün Ümumdünya Gənc Alimlər Forumunun Humanitar Elmlər Komitəsinin moderator-ekspert Şurasına rəhbər qurum seçilmişdir.

2017-ci ildə Bölmənin əməkdaşları Rusiya Federasiyası Kabardin-Balkar Respublikasının Nalçik şəhərindəki Kabardin-Balkar Dövlət Universitetinin Perspektiv Tədqiqatlar Fondu və Kollektiv İstifadə Mərkəzinin əməkdaşları ilə qırmızı mədin tədqiqi sahəsində Əməkdaşlıq müqaviləsi imzalamışlar.

Elmin inkişafı ölkəmizin sosial-iqtisadi və mədəni inkişafı ilə sıx bağlıdır. Bu gün sosial-iqtisadi inkişafın yeni mərhələsində ölkənin intellektual gələcəyini təmin etməyin yolu elmin inkişafından asılıdır. Azərbaycanda elmin inkişafı daim dövlətin diqqət mərkəzindədir.

2018-ci ildə Bölmənin əməkdaşları İtaliyanın Aralıq dənizi hövzəsi və Yaxın Şərq Tədqiqatları Mərkəzinin, Fransanın Lion-2 Universiteti alimləri ilə birgə beynəlxalq arxeoloji və etnoqrafik tədqiqat işlərində iştirak etmişlər. Bu arxeoloji və etnoqrafik tədqiqatların elmi nəticələrinə və aşkar edilmiş çoxsaylı sənətkarlıq məmulatlarının tədqiqinə dair "Gəncə şəhərinin ənənəvi sənətkarlıq növlərinin innovativ üsullarla tədqiqinin əhəmiyyəti (Tarixi-etnoqrafik tədqiqat)" adlı monoqrafiya ingilis və italyan dillərində Çexiyanın paytaxtı Praqa şəhərində nəşr edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2018-ci il ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyəti ili elan edilmiş və Bölmənin əməkdaşları tərəfindən bu tarixi məqamları əks etdirən beş monoqrafiya nəşr edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına əsasən Nizami Gəncəvinin 870, 880, Məhsəti Gəncəvi yaradıcılığının 900, Mirzə Şəfi Vazehin 220 illik yubileyləri Gəncə Bölməsinin əməkdaşları tərəfindən yüksək səviyyədə keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il Sərəncamı əsasında Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə Bölməsi və 56 ölkənin keçmiş prezident və baş nazirlərinin üzv olduğu dünyanın ən nüfuzlu siyasi klublarından olan "Madrid Klubu"nun birgə təşkilatçılığı ilə 2013-cü ilin may ayında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi keçirilmişdir.

Ulu Öndər Heydər Əliyevin 90 illik yubileyində dünyanın tanınmış siyasi xadimlərin, sabiq prezidentlərin, baş nazirlərin, eləcə də görkəmli alim və tədqiqatçıların iştirakı ilə keçirilmiş və Bölmənin əməkdaşları tərəfindən 5 cildlik "Ulu Öndər - 90" kitabının təqdimatı olmuşdur.

Gəncə Bölməsi üçün əlamətdar hadisələrdən biri AMEA Rəyasət Heyətinin növbəti səyyar iclasının 2014-cü il fevral ayının 14-də Gəncə şəhərində möhtəşəm Heydər Əliyev Mərkəzində keçirilməsi olmuşdur. Rəyasət Heyətinin iclasında Qərb bölgəsində aparılan elmi təqdiqat işlərinin hesabatları dinlənilmiş, kadr hazırlığı məqsədilə görülən işlər haqqında, doktorantura və dissertanturaya daxil olan şəxslər haqqında məlumat verilmişdir. Regionda görülən elmi tədqiqat işlərinin koordinasiyası və tədbirlər planı təsdiq edilmişdir. Bu gün Bölmənin ən vacib məsələlərindən biri nəinki "Regionun Sosial-İqtisadi İnkişaf Dövlət Proqramları"nın, həmçinin bölgədə olan universitetləri elmi kadrlarla təmin etməkdən ibarət olmuşdur.

Regionda aparılan elmi tədqiqat işlərinin koordinasiyası, gənc elmi kadrların hazırlanması, çoxsaylı tədqiqatçıların elmi məqalələrini çap etdirmək üçün lazımi şəraitin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə kimya, texnika elmləri, nizamişünaslıq, pedaqogika, fəlsəfə və sosiologiya, tarix və antropologiya elmləri dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

Uzun illər ərzində Gəncə Bölməsində müxtəlif tədqiqatçılar tərəfindən aparılan elmi tədqiqat işlərinin alınan mühüm elmi nəticələrin çap olunmuş əsərləri, kadr hazırlığı ilə bağlı məlumatlar bölmənin ameagb.az saytında yerləşdirilmişdir.

***AMEA-nın Gəncə Bölməsi böyük bir tarixi keçmişə, zəngin elmi dəyərlərə mənsub olan və yüksək mənəviyyata malik olan bir şəhər kimi Gəncənin həm keçmişinə, həm bu gününə, həm də gələcəyinə sahib olmaq üçün bütün fəaliyyətini Vətənin rifahına, onun müstəqilliyinə və inkişafına, elminə, təhsilinə və mədəniyyətinə xidmət etmək kimi müqəddəs amala həsr etmişdir.***

**Fuad ƏLİYEV**
**Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin sədri, akademik**